*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(5) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:24.07.2024*
*Kabul tarihi |Accepted:23.09.2024*
*Yayın tarihi |Published:25.10.2024*

**Hüseyn Hüseynli**

*https://orcid.org/0000-0001-7954-0381*
*Doctor of Philosophy in History, Associate Professor, Faculty of History, Baku State University, Azerbaijan, huseyn_huseynli@bsu.edu.az*

*Atıf Künyesi | Citation Info*

Hüseynli, H. (2024). İkinci Qarabağ Müharibəsi Zamanı Türkiyənin Cənubi Qafqaz Siyasəti. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (5), 3586-3595.

# İkinci Qarabağ Müharibəsi Zamanı Türkiyənin Cənubi Qafqaz Siyasəti

***Xülasə***

*Məqalədə Türkiyə Cümhuriyyətinin Aza'rbaycanda 44 günlük Vətən müharibəsi zamanı Cənubi Qafqaz ölkələri ilə münasibətləri və apardığı uğurlu diplomatik fəaliyyəti tədqiq edilmişdir. Türkiyə Cümhuriyyətinin Azərbaycanın Ermənista qarşı müharibəsi zamanı tutduğu mövqeyə, eləcə də Gürcüstanla enerji siyasəti çərçivəsində ikitərəfli və çoxtərəfli münasibətlər öyrənilir və məqalədə təhlil edilir.*

***Açar sözlər:*** *Türkiyə siyasəti, Azərbaycan siyasəti, Gürcüstan siyasəti, Ermənistan siyasəti, Rusiya siyasəti*

# Turkey's South Caucasus Policy in the Second Karabakh War

***Abstract***

*The article analyses the relations and successful diplomatic activities of the Republic of Turkey with the countries of the South Caucasus during the 44-day Patriotic War in Azerbaijan. In the article, the position of the Republic of Turkey during the war of Azerbaijan against Armenia and bilateral and multilateral relations with Georgia within the scope of energy policy are examined and analysed.*

***Keywords:*** *Turkish policy, Azerbaijani policy, Georgian policy, Armenian policy, Russian policy*

BY NC
Creative Commons Licence

## Giriş

Cənubi Qafqaz Türkiyə ilə Türk dünyasını birləşdirən və mühüm geostrateji əhəmiyyətə malik bölgədir. Xüsusən də, Azərbaycanla ortaq dil, din, mədəni və tarixi kimliyə sahiblik Türkiyənin regiona olan siyasətində ön plana çıxır. "Bir millət, iki dövlət" anlayışı Azərbaycanın Türkiyə üçün nə dərəcədə əhəmiyyətli olmasının göstəricisidir. Azərbaycanla sıx əlaqələrin əksinə, regionun digər ölkəsi olan Ermənistanla münasibətlər ürəkaçan deyil. Ermənistanın işğalçılıq siyasəti, xüsusən də, 1991-ci ildən Azərbaycan torpaqlarına təcavüzü nəticəsində Azərbaycan vətəndaşlarının qətl edilməsi və onların öz dədə-baba yurdlarını tərk etməyə məcbur edilməsi, maksimalist və qeyri-real tələblər gərgin olan Ankara-İrəvan münasibətlərini daha da pozmuşdur.

Digər tərəfdən, Gürcüstan-Türkiyə münasibətləri uzun illərdir ki, strateji xarakter daşıyır və yüksək tərəfdaşlıq səviyyəsində davam edir. Bu çərçivədə iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası mexanizmi də yaradılmışdır. İki dövlət arasında istənilən məsələdə fikir birliyi mövcuddur. Türkiyə Gürcüstanın ərazi bütövlüyünü tanıyır və 2008-ci ildə Rusiyanın Abxaziya və Cənubi Osetiyanı işğalını tanımamışdır. Türkiyənin bu məsələdə mövqeyi iki ölkə arasında münasibətləri daha da gücləndirib. Bundan başqa, Gürcüstan Türkiyənin enerji təchizatı təhlükəsizliyi və regional logistika xətləri baxımından həyati əhəmiyyətə malikdir. Gürcüstan hər nə qədər bölgədəki münaqişələrin müharibə yolu ilə tənzimlənməsinin tərəfdarı olmasa da, Türkiyənin enerjisi, təhlükəsizliyi və Qafqaz geosiyasətini dəstəkləyən siyasət nümayiş etdirir. Türkiyənin region ölkələri ilə münasibətlərinə 2020-ci il 27 sentyabr-10 noyabr 44 günlük Vətən müharibəsi zamanı nəzər salaq.

### 1.Türkiyə-Azərbaycan əməkdaşlığı

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra onun müstəqilliyini ilk tanıyan dövlət Türkiyə Cümhuriyyəti oldu. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev hakimiyyətə gəldiyi ilk dövrdən Türkiyə ilə bütün sahələrdə (iqtisadi, siyasi, mədəni, hərbi) faydalı əməkdaşlığa çalışmış, Türkiyəni Azərbaycanın bir nömrəli müttəfiqinə çevirmişdir. Heydər Əliyevin Türkiyəyə, eyni zamanda müvafiq olaraq Türkiyə Cümhuriyəti rəsmilərinin ölkəmizə etdiyi rəsmi səfərlər, burada aparılan müzakirələr, imzalanan müqavilələr və bunların gələcək inkişaf perspektivləri iki ölkə arasındakı strateji əməkdaşlığı gündən-günə artırmışdır. İki ölkə arasında hərbi əməkdaşlıq ən üst səviyyədədir. Buna istər NATO çərçivəsində birgə əməliyyatlarda iştirak, istər qarşılıqlı silah alış-verişi və yüksək səviyyəli hərbi təlimləri göstərmək olar. Hərbi əlaqələrin inkişafında və Azərbaycan Ordusunun güclənməsində, eyni zamanda bölgədə sülhün və

təhlükəsizliyin təmin olunmasında "EFES", "Anadolu Ankası", "Qış Təlimi", "Anadolu Ulduzu", "Erciyes-2019", "Anadolu Qartalı", "Mustafa Kamal Atatürk", Sarsılmaz Qardaşlıq", "TurAz Qartalı-2019", TurAz Qartalı-2020" təlimləri xüsusi rol oynamışdır (Hərbi and qəzeti, 15 noyabr 2021).

27 sentyabr səhər saat 06:00 radələrində Ermənistanın təxribatı nəticəsində bütün cəbhə boyu genişmiqyaslı əməliyyatların başlaması Cənubi Qafqazda geosiyasi maraqların yenidən toqquşmasına gətirib çıxardı. Fransa və digər müttəfiqlərindən hərtərəfli dəstək alan Ermənistan ordusu Azərbaycana qarşı təcavüzkar siyasətinin yeni mərhələsinə başladı. Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya və türkfobiya" siyasətinin hökm sürməsi, gənc nəsilə Azərbaycan xalqına nifrət aşılanması, eləcə də, Ermənistanın müdafiə nazirinin Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələməsi regionda sülhün əlçatmazlığının bariz nümunəsi idi. Müharibənin ilk günlərindən erməni silahlı qüvvələri Qarabağda mövcud faşist rejimlə birlikdə dinc əhalini və mülki xarakterli infrastrukturları hədəfə alır, Cenevrə konvensiyaları daxil olmaqla beynəlxalq humanitar hüququn bütün şərtlərini pozurdu. Ermənistan ordusu isə özünün atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinin içərisində və yaxınlığında yerləşdirirdi. Sentyabrın 27-də Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevlə telefonla danışaraq Ermənistanın hərbi təxribatı nəticəsində mülki şəxslərin və hərbi qulluqçuların həlak olması ilə əlaqədar başsağlığı verdi. Eyni zamanda, Türkiyənin Azərbaycanın yanında olduğunu qeyd etdi. Sentyabrın 29-da Almaniya Federativ Respublikasının Kansleri Angela Merkel Prezident İlham Əliyevlə telefonla danışaraq silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə etdi (Qasımlı, 2021).

Müharibə zamanı beynəlxalq mətbuat orqanlarında Türkiyənin müharibədə iştirakı ilə bağlı çoxsaylı yalan məlumatlar da dərc olunurdu. Türk qırıcılarının guya Azərbaycanda olması ilə bağlı silsilə feyk xəbərlər yayılırdı. Maraqlısı odur ki, bu məlumatların yayılmasında Avropa siyasətçiləri əllərindən gələni əsirgəmirdilər. Bu iftiraları ifşa edən Prezident İlham Əliyev Avropa siyasətçilərinə də xəbərdarlıq etdi:

*"...ermənilər başqa bir feyk xəbər yayıblar ki, Türkiyəyə məxsus F-16 Ermənistanın Su-25 təyyarəsini vurub. Bu, feyk xəbər idi. Bu feyk xəbər mediaya təqdim olundu. Siyasətçilər, avropalı siyasətçilər bu feyk məlumatı istifadə etməyə başladılar və indi sübut olunanda ki, bu, baş verməyib, heç kim üzr belə istəmədi. Mən bizi ittiham edənlərdən üzrxahlıq tələb edirəm. Mən onlardan məsuliyyətli olmağı, söylədiklərinə nəzarət etməyi tələb edirəm..."* (https://president.az/az/articles/view/41712).

Müharibə təkcə ərazidə deyil, mətbuat cəbhəsində də gedirdi. Beynəlxalq ictimaiyyəti düzgün məlumatlandırmaq məqsədilə Prezident İlham Əliyev müxtəlif televiziya kanallarına müsahibə verirdi. Bu məlumatların geniş auditoriyaya çatdırılmasında Türkiyə mətbu orqanları da xüsusi rol oynayırdı. Avropa, Amerika və rus siyasətçilərinin müharibənin dayandırılması ilə bağlı tez-tez dilə gətirdikləri çağırışlara Azərbaycan Respublikası Prezidentinin reaksiyası sərt olmuşdur. Prezident İlham Əliyev "TRT Haber" telekanalına müsahibəsində atəşkəs çağırışlarına cavab olaraq deyirdi:

*"Ermənistanın Baş naziri bir il əvvəl bizim torpaqlarımızda demişdi ki, Qarabağ Ermənistandır. O, Azərbaycan xalqından üzr istəməlidir. ... İkincisi, o, deməlidir ki, Qarabağ Ermənistan deyildir. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı bölgələrdən Ermənistan silahlı qüvvələri çıxır"* (Azərbaycan ordusu qəzeti, 15 Oktyabr 2020).

Türkiyə müdafiə sənayesinin məhsullarının Azərbaycanda olması da onun gücünü artırırdı. Göstərilən mənəvi dəstək, eyni zamanda, iki ölkə münasibətlərinin səviyyəsini dünya ölkələrinə nümunə kimi sərgiləyirdi. Prezident bu barədə deyirdi:

*"Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir"* (https://azertag.az/xeber/Prezident_Ilham).

2020-ci ilin 10 noyabrında imzalanan Üçtərəfli Bəyannamə ilə Azərbaycanın yeddi rayonunun işğaldan azad edilməsi prosesi başa çatdı. Cənubi Qafqaz regionu üçün yeni üfüqlər yarandı. Türkiyənin Ermənistanla sərhədlərinin açılması məsələsi gündəmə gəldi. Lakin Türkiyə, xüsusilə Cənubi Qafqazdakı geosiyasi durumu Azərbaycanın lehinə çevirə bilmək üçün üçtərəfli sülh müqaviləsini davamlı olaraq vurğuladı. Azərbaycan isə ehtiyatı əldən buraxmayaraq, sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbini irəli sürür. Çünki Ermənistan konstitusiyasında Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları mövcuddur. Bu baxımdan, Cənubi Qafqazda sülhün deyil, qarşıdurmanın davam etməsini istəyənlər həm bu məsələ, həm də müxtəlif bəhanələrlə Ermənistanla Azərbaycan arasında yeni münaqişə ocaqlarının yaranmasına çalışırlar (https://oxu.az/musahibe/sulhun-acari-turklerin-elinde).

## 2. Türkiyə-Gürcüstan Münasibətlərinin Yeni Fazası

Gürcüstan Xəzər hövzəsini Bakı-Gəncə-Tbilisi-Qori-Kutaisi-Poti yolu ilə Qara dənizə birləşdirən ən qısa yol və Cənubi Qafqaz regionunun Qara dənizə açılan qapısıdır. Ermənistanın Rusiya və Qara dənizə, Azərbaycanın Qara dəniz və Türkiyəyə çıxış yolu, Türkiyəni isə Azərbaycan üzərindən Türk dünyasına bağlayan marşrutun üzərində yerləşməsi Gürcüstanı qonşu ölkələr üçün əvəzolunmaz edir. Bu baxımdan da Gürcüstan qlobal və regional güclər üçün mühüm rəqabət meydanıdır (file:///C:/Users/Acer/Desktop/M%C9%99qal%C9%99/Karadeniz.pdf). 2008-ci ildən Cənubi Osetiya və Abxaziyanın Rusiya tərəfindən işğalı ilə Tiflisdən təxminən 50 km şimalda rus qoşunlarının olması Gürcüstanın Qara dənizdəki sahil xəttini azaltmış və onun Qara dənizdəki hüquqlarını təhlükəli vəziyyətə salmışdır. Hibrid döyüş texnikasında təcrübəsi olan Rusiyanın mövcudluğu Gürcüstanı daxili və xarici siyasətdə Avropaya inteqrasiya etməyə və Şimali Atlantika Alyansının dəstəyini əldə etmək baxımından Qərbin siyasi prinsiplərini qəbul etməyə gətirib çıxarmışdır.

31 oktyabr 2020-ci il parlament seçkilərindən sonra Gürcüstan hökuməti Saakaşvilidən miras qalan anti-Rusiya siyasəti əvəzinə, daha çox Gürcüstanın mövcudluğu üçün balanslaşdırılmış siyasət yürütməyə başladı. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya dövlət başçıları tərəfindən imzalanan üçtərəfli bəyanatdan sonra Gürcüstan prezidenti Salome Zaurabişvili öz rəsimi Twitter hesabında bunları qeyd etdi: *"Sülh və sabitliyin alternativi yoxdur. Əməkdaşlıq üçün tələb olunan yeni səhifəni birlikdə açacağıq".* Beləliklə, 2008-ci ildən sonra ilk dəfə Gürcüstan hökuməti Rusiyanın regional sabitliyə töhfə verə biləcəyinin siqnallarını verirdi və rus sülhməramlıları üçün hava məkanını açdı. Baş verənlər Gürcüstanda müxalif gücləri hərəkətə keçirdi və onlar prezident Salome Zaurabişvilinin təbrikini Rusiyanın Cənubi Qafqazı "yenidən işğalı"na verilən dəstək kimi qiymətləndirdilər. Hətta ABŞ-nin Gürcüstandakı sabiq səfiri Yan Kelli: *"Gürcüstan prezidenti Rusiyanın Qafqazda yeni işğalı ilə bağlı razılaşmanı necə təbrik edə bilər?"*-sualını verməklə Zaurabişvilinin şərhinə reaksiya vermişdir. Lakin, üçtərəfli bəyanatın region üçün yeni üfüqlər açacağına ümid edən siyasətçilər də az deyildi. Onlardan politoloq Tornike Saraşenidze "Uzunmüddətli perspektivdə Cənubi Qafqazda sülhün hökm sürməsi Gürcüstanın marağındadır. Gürcüstan; turizm, tranzit və ticarətdən qazanc əldə edən ölkədir. Ona görə də pis sülh yaxşı müharibədən yaxşıdır" sözləri ilə fərqli fikir ortaya qoydu. Müxalif Milli Hərəkat Partiyasının başqanı Salome Samadaşvili isə qeyd edirdi: *"Bəziləri Ermənistanla Azərbaycan arasında bağlanmış razılaşmaya mənfi yanaşır. Amma fikrimcə, bu vəziyyət*

*Gürcüstanın regionda tranzit imkanlarını təhdid etməyəcək”* (https://iramcenter.org/karabag-savasinin).

Şübhəsiz ki, bu istiqamətdə Gürcüstana ən böyük dəstəyi Türkiyə göstərirdi. Regional sabitlik üçün bölgənin bütün dövlətlərindən ibarət platformanın yaradılması Türkiyənin həm regionda Rusiya və İranı üstələməsi demək idi, eyni zamanda enerji təhlükəsizliyi və ticarət gəlirləri baxımından önəmli idi. Türkiyə hələ 2008-ci ildə Rusiyanın Gürcüstanda eskalasiyasını dayandırmaq üçün apardığı siyasi gedişlər və “sabitlik platorması”-na bənzər yeni bir regional platforma irəli sürməsi Gürcüstan tərəfindən pozitiv qarşılanmadı. Qarabağ zəfəri münasibətilə Bakıda keçirilən hərbi paraddan sonra Azərbaycan və Türkiyə prezidentləri Cənubi Qafqazda regional əməkdaşlıq üçün altıtərəfli platforma təklif etdilər (Ruhadze, 2020). Lakin Gürcüstan hökuməti Rusiyayanın iştirakını bəhanə gətirərək bu platformaya qarşı çıxdı. Prezident R.T. Ərdoğan Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin 2021-ci il iyunun 1-də Türkiyəyə səfəri zamanı fərqli təkliflə çıxış etdi. O ittifaqın 3+3 (3 Cənubi Qafqaz dövləti + Türkiyə, İran və Rusiya) formatında ola biləcəyini bildirdi. Azərbaycan və Rusiya da Türkiyənin bu təklifini dəstəklədi. Ona görə də bu mövzuda Azərbaycan-Türkiyə-Rusiya əməkdaşlığının ortaya çıxdığını görürük. Gürcüstanla yanaşı Ermənistan da bu məsələyə ehtiyatla yanaşır. Çünki Qərb, xüsusən də ABŞ bu platformaya müsbət baxmır. ABŞ regional platformaya qarşı çıxır və problemlərin ATƏT çərçivəsində həllini və əməkdaşlığı davam etdirməyi təklif edir. İranın da platformaya can atdığını söyləmək olmaz. Çünki İran Cənubi Qafqazla münasibətlərini ikitərəfli səviyyədə, üçüncü tərəf olmadan davam etdirmək istəyir (https://www.aa.com.tr/tr/analiz/karabag). Bütün bunlara baxmayaraq, Türkiyə-Gürcüstan münasibətləri getdikcə inkişaf etməkdədir. Tbilisi administrasiyasının iki ölkə arasındakı münasibətlərə verdiyi önəm yüksək vəzifəli şəxslərin mesajlarından da başa düşülür. Gürcüstanın baş naziri İrakli Qaribaşvili: *“Müstəqillikdən bu günə Gürcüstan və Türkiyə arasında bənzərsiz dostluq və qardaşlıq bağları var. Ölkələrimiz möhkəm strateji tərəfdaşlığı getdikcə daha da inkişaf etdirir”* sözləri buna əsl nümunədir (Gürcistan Başbakanı Garibaşvili: Türkiye, Küresel Ölçekte Ana Siyasi ve Ekonomik Aktörler den Biri Oldu, 31 Ekim 2023). Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili də ölkəsinin Türkiyə ilə strateji tərəfdaşlığa malik olduğunu bəyan edib. Papuaşvili “Türkiyənin Gürcüstanın ərazi bütövlüyü və suverenliyini tanıdığını və Gürcüstanın NATO-ya inteqrasiyasına konkret dəstək verdiyini vurğulayıb (Gürcistan Parlamentosu Başkanı Papuaşvili: Gürcistan Türkiye ile Stratejik Ortaklık ve İyi Komşuluğa Büyük Değer Veriyor, 30 Ekim 2023).

Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvili Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illiyi ilə münasibətilə bağlı bəyanat yayıb. O, mesajında Türkiyənin öz ölkəsinin ərazi bütövlüyü və suverenliyinə güclü dəstəyinə böyük əhəmiyyət verdiyini vurğulayaraq, "Gürcüstan və Türkiyə arasında nümunəvi və strateji əlaqələrin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu qeyd edirdi (Gürcistan Dışişleri Bakanı Darçiaşvili: Türkiye Güçlü ve İstikrarlı Bir Devlet Kurdu, 31 Ekim 2023). 2023-cü il 6 fevral tarixində Türkiyədə baş vermiş zəlzələ fəlakətindən sonra Gürcüstan Azərbaycanla birlikdə ən tez köməyə gələn ölkələrdən oldular. Gürcüstan axtarış-xilasetmə qrupları və humanitar yardım göndərməklə yanaşı, zəlzələnin yaratdığı dağıntıları aradan qaldırmaq üçün də dövlət səviyyəsində səylər göstərdi (Deveci, 12 Şubat 2023). Türkiyənin Qafqaza açılan qapısı olan Gürcüstanla əlaqələr kommersiya baxımından da inkişaf edir. Gürcüstanın baş naziri Qaribaşvili ölkəsinin ən böyük ticarət partnyorunun Türkiyə olduğunu bildirib. Xarici İqtisadi Əlaqələr Şurasının Gürcüstanla iqtisadi əlaqələr üzrə sədri Osman Çalışkan Türkiyə ilə Gürcüstan arasında ticarət həcminin 3 milyard ABŞ dolları olduğunu və 2024-cü ilin sonuna kimi bunun 5 milyard ABŞ dolları olmasını hədəfləndiklərini bildirib (Türk, 19 Ocak 2024).

### 3. Ermənistanın iqtisadi çöküşü və Türkiyə ilə əməkdaşlıq axtarışları

II Qarabağ müharibəsi başlamazdan əvvəl region ölkələri içərisində ən çox iqtisadi böhran Ermənistanda idi. Ölkə administrasiyasının yarıtmaz siyasəti və uğursuz inkişaf strategiyası əhalinin sosial rifahına mənfi təsir edirdi. Ermənistan iqtisadiyyatının inkişafına mane olan amilləri aşağıdakı kimi sadalamaq olar:

1. Azərbaycanla ərazi münaqişəsi;
2. Türkiyə ilə ərazi mübahisələri;
3. Bu iki qonşu dövlətlə sərhədlərin bağlı olması;
4. Covid-19 pandemiyası;
5. Xammal və enerji cəhətdən xarici asılılıq.

Azərbaycan və Türkiyə ilə sərhəd qapılarının bağlı olması Ermənistanın seçimlərini azltmaqla yanaşı Rusiyadan asılılığını artırırdı. Misal üçün Paşinyan 2020-ci ilin mayında bir qrup dövlət rəhbərləri ilə Putindən qazın qiymətinin aşağı salınmasını xahiş etsə də, Putin bu tələbi rədd etdi. Bunun ardınca II Qarabağ savaşı zamanı Paşinyanın Rusiya və üzv olduğu KTMT-ni tənqid etməsi, Ermənistanın siyasi mövqeyinə mənfi təsir göstərmiş və zəif olan hərbi qüvvəsinin darmadağın olmasına gətirb çıxarmışdır (https://avim.org.tr/tr/analiz/ermenıstan). Ermənistan iqtisadiyyatını çətin vəziyyətə salan daha bir məsələ 2020-ci ilin mart ayından

başlayan Covid-19 pandemiyasıdır. Martın 16-dan ölkədə fövqəladə vəziyyət elan edildi. 15 aprelədək fövqəladə vəziyyət uzadıldı və may ayından etibarən qadağalar yumşaldılmağa başlandı, ancaq fövqəladə vəziyyət sonrakı aylarda da davam etdi. Virusa yoluxanların sayının artmasının qarşısını almaq məqsədilə məktəblər və universitetlər fəaliyyətini müvəqqəti dayandırmış, quru və hava sərhədləri bağlanmışdır. Bundan başqa ictimai nəqliyyatda müəyyən məhdudiyyətlər tətbiq edildi. Tətbiq edilən məhdudiyyətlər iqtisadiyyatı çətin vəziyyətə saldı (Huseynli, 2020). AB və ABŞ-nin maliyyə dəstək paketləri ilə iqtisadiyyatı gücləndirmək cəhdləri qadağaların çox tez aradan qaldırılması və sentyabr ayında virusa yoluxma nisbətinin çoxalması ucbatından puça çıxdı. Ölkə iqtisadiyyatı ilin üçüncü rübündə daha da çətin vəziyyətə düşdü. 2020-ci ilin avqustunda hökumət tərəfindən verilən məlumata görə, pandemiyanın yaratdığı iqtisadi və sosial dağıntıların kompensasiyası üçün 300 milyon dollar dəstək paketi hazırlanmışdır (https://massispost.com/2020/08/armenia-spends). II Qarabağ müharibəsinin başlaması ölkə daxilində koronovirusun artması ilə müşahidə olunmuş və bu da vəziyyəti daha da pisləşdirmişdir. Müharibə ilə əlaqədar kifayət qədər tibbi ləvazimatın olmaması küçələrə çıxan insanlar və əsgərlər arasında virusun yayılmasını sürətləndirmişdir. Covid-19 pandemiyası müharibə zamanı arxa plana keçmişdir. Müharibənin başlaması Ermənistanın bir dövlət kimi mövcudluğuna təhlükə idi. Qeyd edək ki, Ermənistan 2020-ci il dövlət büdcəsindən hərbi xərclər üçün 634 milyon dollar vəsait ayırmışdı. 44 gün davam edən müharibə nəticəsində Ermənistan ordusuna 4 milyard dollara yaxın zərər dəyib. Bu itki Ermənistanın illik büdcəsindən 6 dəfə çox idi. Ermənistanın Türkiyə və Azərbaycanla münasibətlərinin gərgin olsa da, digər iki qonşuları İran və Gürcüstanla yaxşı münasibətləri var. Hətta ABŞ və Avropa Birliyinin İrana sanksiyalarına baxmayaraq, Ermənistan-İran Meğri sərhəd xəttini canlandırmaqdan ötürü AB 23 milyon dollarlıq investisiya yatırmışdır. AB-dən aldığı maliyyə dəstəyi ilə Gürcüstanla sərhəddəki hər üç sərhəd qapısı yenidən inşa edilmişdir (Mushvig, 2020). 10 noyabr bəyanatından sonra regionda yaranmış yeni reallıq Ermənistan rəhbərliyini ciddi düşündürməyə başladı. Xüsusilə də, qərb qonşusu Türkiyə ilə II Qarabağ müharibəsindən sonra yaranmış əlverişli siyasi konyuktura çərçivəsində münasibətlərin tədricən normallaşması üçün ilkin şərt olmadan dialoqa başlanıldı. Bu çərçivədə Türkiyədən səfir Serdar Kılıç və Ermənistandan Milli Məclis sədrinin müavini Ruben Rubinyan Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndələri təyin olundular. Nümayəndələr tərəfindən keçirilən bir sıra görüşlərdən sonra 2 fevral 2022-ci il tarixindən etibarən birbaşa uçuşlara başlanılıb və Türkiyə-Ermənistan sərhədinin

1 iyul 2022-ci il tarixindən etibarən üçüncü ölkə vətəndaşları üçün açılması və iki ölkə arasında hava yük ticarətinin başlanması qərara alınıb (https://www.mfa.gov.tr/turkiye).

**Sonuç**

Normallaşma prosesi Türkiyə üçün nikbinlik yaratsa da, Ermənistanda və diasporda böyük reaksiyaya səbəb oldu Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın müşaviri olmuş tarixçi Gerard Jirair Libaridian 2021-ci ilin iyununda Antalya Diplomatik Forumunda keçirilən paneldə Ermənistanın özünü regionun bir hissəsi kimi görməli olduğunu qeyd etdi. Libaridiana görə Ermənistan rəsmiləri ölkənin regionda mövcudluğunu tam dərk edə bilmir və buna görə də vəziyyətin yaxşılaşdırılması səylərinə kifayət qədər töhfə verə bilmirlər. Türkiyənin normallaşma prosesinə hazır olduğunu, lakin Ermənistanın ehtiyyatlı yanaşdığını deyən Libaridian, hələ danışıqlar başlamadan prosesə qarşı təbliğat işlərinin səngimədən davam etdiyini bildirib. Ermənistandakı gənc nəslin daha çox tədqiqatçı olduğunu və normallaşma əleyhinə təbliğata tənqidi yanaşdığını vurğulamışdır Libaridian normallaşma prosesinin bölgə üçün bir çox üstünlüklərə malik ola biləcəyini qeyd edib (https://avim.org.tr/tr/analiz/turkıye-ermenısta). Bütün bunlardan göründüyü kimi, Ermənistanın regional sabitliyə töhfəsi, eləcə də, qonşu dövlətlərlə münasibətlərin qaydaya salınması Türkiyə ilə mehriban qonşuluq siyasətinin qurulmasına yönəlmiş normallaşma prosesindən keçir.

**Ədəbiyyat Siyahı**

(15 noyabr 2021). *Hərbi qəzeti.*

(15 oktyabr 2020). *Azərbaycan ordusu qəzeti.*

Deveci, M. (2023 Şubat 12). *Gürcistan, Asrın Felaketi'nde Türkiye'nin Yardımına Koşan İlk Ülkelerden Oldu.* Anadolu Ajansı.

Gürcistan Başbakanı Garibaşvili: Türkiye, Küresel Ölçekte Ana Siyasi ve Ekonomik Aktörlerden Biri Oldu. (31 Ekim 2023). *Anadolu Ajansı.*

Gürcistan Dışişleri Bakanı Darçiaşvili: Türkiye Güçlü ve İstikrarlı Bir Devlet Kurdu. (31 Ekim 2023). *Anadolu Ajansı.*

Gürcistan Parlamentosu Başkanı Papuaşvili: Gürcistan Türkiye ile Stratejik Ortaklık ve İyi Komşuluğa Büyük Değer Veriyor. (30 Ekim 2023). *Anadolu Ajansı.*

Huseynli, H. (2020). *Proceeding Book.* ATLAS, 27.

Qasımlı, M. (2021). *Azərbaycan Respublikasının tarixi (1991-2021).* (C. II). (2003-2021). Bakı Dövlət Universiteti.

Mushvig, M. (2020, Aralık 6). *Armenia's Military Equipment Loss in Recent Karabakh War Stands at $4 Billion, Exceeding State Budget*. Caspian News. https://caspiannews.com/news-

Ruhadze, B. N. (2020, Aralık 17). *The Regional Geopolitical Sextet.* Georgia Today.

Türk, Y. (2024 Ocak 19). *Türkiye-Gürcistan Ticaret Hacminin Bu Yıl 5 Milyar Dolara Ulaşması Bekleniyor.* Anadolu Ajansı.

https://avim.org.tr/tr/analiz/ermenıstan-kgao-uzerınden-rusya-

https://massispost.com/2020/08/armenia-spends-over 300-million-on-pandemic-relief-programs/

https://www.mfa.gov.tr/turkiye-ermenistan-siyasi-iliskileri.tr.mfa

https://avim.org.tr/tr/analiz/turkıye-ermenıstan-ılıskılerının-

http://georgiatoday.ge/news/23353/The-Regional Geopolitical-Sextet-

https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Biz_Turkiye_Ordusunun_da

https://oxu.az/musahibe/sulhun-acari-turklerin-elinde-olacaq-pasinyan-iki-il-vaxt-

file:///C:/Users/Acer/Desktop/M%C9%99qal%C9%99/Karadeniz.pdf

https://iramcenter.org/karabag-savasinin-gurcistandaki-yansimalari-413

https://president.az/az/articles/view/41712

https://www.aa.com.tr/tr/analiz/karabag-zaferinin-birinci-yilinda-guney-